Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus hüquqi şəxslərin diqqətinə

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2019-cu il 4 iyun tarixli 257 nömrəli Qərarı ilə paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması və korporativ idarəetmə standartlarının tətbiqi məqsədilə qaydalar təsdiq edilmişdir.

Həmin Qərarla təsdiq edilmiş "Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi Qaydası"nın 4.1-ci bəndinə əsasən paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin səmərəlilik göstəricilərinin illik proqnoz (hədəf) göstəriciləri banklar və digər kredit təşkilatları, sığortaçı və təkrarsığortaçılar, qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslər, investisiya fondları və lisenziyalaşdırılan ödəniş sistemlərinə münasibətdə Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurası ilə, digər hüquqi şəxslərə münasibətdə isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 30 dekabr tarixli 534 nömrəli Qərarı ilə yaradılmış Komissiya ilə razılaşdırılaraq təsdiq edilməlidir.

Həmçinin, "Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi Qaydası"nın 4.2-ci bəndinə əsasən illik səmərəlilik göstəricilərinin proqnoz (hədəf) göstəriciləri hüquqi şəxsin Müşahidə Şurası (Direktorlar Şurası) tərəfindən təsdiq olunduqdan sonra hesabat ilindən əvvəlki ilin noyabr ayının 1-dək müvafiq fəaliyyət istiqamətlərinə uyğun olaraq Maliyyə Sabitliyi Şurasına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2016-cı il tarixli 534 nömrəli Qərarı ilə iri dövlət şirkətlərinin gəlirlər və xərclər smetaları üzrə yaradılmış Komissiyaya təqdim edilməlidir.

Eyni zamanda, həmin Qərarla təsdiq olunmuş "Səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan səhmdar cəmiyyətlərində korporativ idarəetmə Qaydaları və Standartları"na əsasən dövlətə məxsus olan səhmdar cəmiyyətlərində korporativ idarəetmə qaydalarının tətbiqi mexanizmi müəyyən edilmişdir. Belə ki, sonuncu qeyd olunan Qaydanın 4.1-ci bəndinə əsasən səhmdar cəmiyyətdə onun fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirən Müşahidə Şurası (Direktorlar Şurası) yaradılmalıdır.